# *Orta ixtisas təhsili: Problemlər və vəzifələr.*

# *Astara Pedaqoji Kolleci keyfiyyətli kadr hazırlığına xüsusi diqqət yetirir.*

**Ağababa İbrahimov,**

**Astara Pedaqoji Kollecinin direktoru**



**Hədəflər.**

Azərbaycan təhsili uğurlu addımlarla gələcəyə doğru inamla irəliləyir. Son vaxtlar respublikamızın beynəlxalq aləmdə və iqtisadi sahədə qazandığı nailiyyətlər bilavasitə təhsilimizin səviyyəsindən xəbər verir.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş təhsil islahatları bu gün onun layiqli davamçısı ölkə prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Respublikamızın bütün rayonlarında təhsilə olan diqqət və qayğı artmışdır. Astara rayonunda da təhsil sahəsində nəzərəçarpacaq uğurlu nəticələr əldə edilmişdir.

Ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində, şəxsiyyətin və cəmiyyətin peşə-ixtisas təhsilinə olan tələbatının ödənilməsində orta ixtisas təhsilinin özünəməxsus yeri var. Orta ixtisas təhsili ölkədə milli təhsil sisteminin

yüksəlməsində və cəmiyyətin intellektual potensialının formalaşmasında əhəmiyyətli rola malikdir. Təhsilin bu pilləsi iqtisadiyyatın müxtəlif sahələrinin ixtisaslı kadrlarla təmin olunmasında xüsusi missiya daşıyır.

Astara Pedaqoji Kolleci indi yeni və ən məsuliyyətli dövrünü yaşayır. Kollec bu gün təkcə xarici görünüşündən deyil, təhsilin məzmunu, keyfiyyəti və elmi-pedaqoji potensialı baxımından da xeyli təkmilləşir. Ilin əvvəlindən yeni rəhbərlik bütün sahələrdə ciddi dəyişikliklər aparmaqla kolleci ölkənin ən qabaqcıl və nümunəvi orta ixtisas təhsili müəssisəsinə çevirmək istiqamətində mühüm və cəsarətli addımlar atır. Atılan bu addımlar  qarşıya qoyulan məqsədə çatmaq üçün bütün qüvvələri səfərbər edəcəkdir.

Kollecin fəaliyyət istiqaməti xeyli genişlənib. Hazırda kollecdə, əyani və qiyabi şöbələr də daxil olmaqla, 1000-dən artıq tələbə təhsil alır. Kollecdə yüzə yaxın müəllim çalışır. Cari tədris ilində 14 ixtisas üzrə pedaqoji kadr hazırlanması nəzərdə tutulur. Məzunlara subbakalavr dərəcəsi verilir ki, bu da bakalavr dərəcəsinə keçid deməkdir. Son illər kollecə tələbə qəbulunda keçid ballarının artması da rəqabətin yüksəlməsinin təzahürüdür. Rəqabətin olması gənclərin kollecə maraqlarının artdığını göstərir ki, bu da bizi sevindirməyə bilməz.

## Vəzifələr.

***Sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə təbii resurslardan daha səmərəli və elmi yanaşma ilə istifadə edildiyi bir vaxtda  təhsilin rolu daha da artır. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın yaradılmasında təhsilin rolu indiki qədər heç vaxt aktual olmayıb.***

***Təhsil naziri cənab Mikayıl Cabbarov öz çıxışlarında müasir dünyada elmin, təhsilin mühüm rolunu daim qeyd edib. O, ölkəmizdə təhsil sahəsində aparılan islahatların gənclərdə müasir düşüncə tərzinin formalaşmasına, onların tədqiqatyönümlü fəaliyyətə cəlb edilmələrinə istiqamətləndiyini diqqətə çatdırıb.***

Cənab Mikayıl Cabbarov Azərbaycan Müəllimlərinin XIV qurultayındakı çıxışında demişdir: **“...Lakin həyat yerində durmur, dünya hər gün dəyişir,**

**inkişaf edir. Bu dəyişikliklərlə hər zaman ayaqlaşmaq, onlardan geri qalmamaq üçün üzərimizdə hər gün çalışmalı, böyük zəhmət hesabına qazandığımız nailiyyətlərin qorunub saxlanılmasını və geridönməzliyini təmin etməliyik".**

Hörmətli nazirin çıxışlarından irəli gələn vəzifələri həyata keçirmək istiqamətində kollecdə mühüm işlər görülür. Təhsil Nazirliyi müntəzəm olaraq fəaliyyətimizlə maraqlanır, öz tövsiyə və göstərişlərini verir, kollecdə işin yenidən qurulması, maddi-tədris bazasının möhkəmləndirlməsi, orta ixtisaslı kadrlar hazırlayan nümunəvi təhsil ocağı adını qazanmağımız üçün diqqət və qayğısını əsirgəmir.

Müasir gənclərin əksəriyyəti müəyyən səbəblərdən ali məktəbə daxil ola bilmir və təhsildən kənarda qalırlar. Onlar arasında elələri var ki, müxtəlif ixtisas, sənət və peşələrə yiyələnməyə maraq göstərir və bu sahələr üzrə ixtisas təhsili almaq istəyirlər. Maddi vəziyyətləri onları Bakı və digər şəhərlərə ixtisas əldə etmək arxasınca getməyə imkan vermir.

Ölkənin kənd təsərrüfatı, aqrar, meşəçilik, ətraf mühitin qorunması, turizmin təşkili və xidmət sahələrində lazım olan işlər görməyə qadir işçi qüvvəsinə ehtiyac vardır. Gənclər arasında kommersiya, marketinq, mühasibatlıq və iaşə məhsullarının texnologiyası sahələrinə də maraq göstərənlərin sayı artmaqdadır. Bundan əlavə günümüzün reallığı müxtəlif fəaliyyət sahələri üçün yeni texnologiyalara yiyələnmiş savadlı və səriştəli kadrların hazırlanmasını və onların fəaliyyət sahələrinə yerləşdirilməsini tələb edir.

Bu baxımdan gəncləri təhsilə cəlb etməkdən ötrü kollecdə 2017/2018-ci tədris ilində hazırlanacaq ixtisaslarla bağlı tədris qruplarının açılması respublika iqtisadiyyatının tələb olunan kadrlarla təminatına bir töhfə sayılacaqdır.

Astara rayon icra hakimiyyətinin başçısı cənab Qəzənfər Ağayev daim kollecə diqqət və qayğı göstərir, kollektivdəki vəziyyət və tədris prosesi ilə maraqlanır, öz göstəriş və tövsiyələrini verir. Məhz hörmətli başçımız kollecdə bir sıra yeni ixtisaslar üzrə kadr hazırlığı aparmaq üçün tövsiyələrini vermişdir.

Bunu əsas tutaraq kollecin rəhbərliyi tələbə qəbulu planına qeyd olunan ixtisasların salınması üçün Təhsil Nazirliyinə təklif göndərmişdir:

1. “Ailə və ev təhsili”
2. “Məktəbəqədər təlim və tərbiyə”
3. “Texnologiya müəllimliyi”
4. “Fiziki tərbiyə müəllimliyi”
5. “Kitabxana-informasiya təminatı”
6. “Aqronomluq”
7. “Meşə və meşə-park təsərrüfatı”
8. “Marketinq”
9. “Kommersiya”
10. “Mühasibat uçotu”
11. “Turizm və onun təşkili”
12. “Turist və sanatoriya komplekslərində tibbi xidmətin təşkili”
13. “İaşə məhsullarının texnologiyası”
14. “Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə”.

Əlbəttə, bu ixtisaslar üzrə kadr hazırlığının kollecdə təşkili həm bölgəmiz, həm də ölkəmiz üçün çox mühüm tarixi hadisə olacaqdır.

## Mövcud vəziyyət

Rayonun təcrübəli və səriştəli iş qabiliyyətinə malik müəllimlərin, alim və pedaqoqların, ixtisaslı mütəxəssislərin nəzərinə çatdırırıq ki, kollecdə bir sıra ixtisaslar və fənlər üzrə vakansiyalar olacaqdır. Həmin vakansiyaları tutmaq üçün ixtisaslı müəllimlər indidən müraciət edə bilərlər. Kollecdə psixoloq ştatı vakant olduğundan baza təhsili olan təcrübəli psixoloqlar da bu vəzifəyə təyin olunmaq üçün rəhbərliyə müraciət edə bilərlər.

Tələbə-gənclərin tərbiyə işlərinin əsasını tədris olunan fənlərə böyük həvəs oyatmaq, vətənpərvərlik tərbiyəsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və başqa istiqamətlər təşkil edir. Bu məqsədlə pedaqoji və tələbə kollektivlərinin iştirakı ilə kollecdə çoxlu kütləvi tədbirlər keçirilir. Bu tədbirlərə idarə və təşkilat rəhbərləri, ictimaiyyətin nümayəndələri, valideynlər də dəvət olunurlar.

Danılmaz faktdır ki, təhsilin keyfiyyəti maddi-texniki tədris bazasının inkişaf etdirilməsindən, tələbələrin yüksək keyfiyyətli bilik və bacarıqlara yiyələnməsi üçün əlverişli şəraitin yaradılmasından xeyli dərəcədə asılıdır.

Hazırda kollecin qarşısında duran əsas vəzifələrdən biri tədris prosesini müasir informasiya texnologiyaları və tədris avadanlıqları ilə təmin etməkdən ibarətdir. Kollecdə tədris prossesində çoxlu sayda müasir tipli kompüterlərdən, elektron lövhələrdən istifadə olunur.

Kollecdə respublikamızın 20-yə yaxın şəhər və rayonundan olan gənclər təhsil alır. Onlar təhsil almaqla yanaşı həm də rayonumuzun iqtisadiyyatının inkişafına və şəhər əhalisinin rifah halınının daha da yaxşılaşdırılmasına təsir edirlər. Kitabxana və oxu zalında yenidənqurma işləri aparılmış və elektron kitabxana yaratmaq istiqamətində tələb olunan işlər həyata keçirilmişdir.

Kollecin tədris-metodiki informasiyasının əsas mənbələrindən biri də məhz kitabxanadır. Kitabxanaya 10 adda qəzet və jurnal daxil olur. “Astara” qəzeti də müəllim və tələbələrin ən çox oxuduğu qəzetlərdəndir. Qəzetin bütün nömrələrində mükəmməl və maraqlı yazılara rast gəlinir.

Kollecdə tədris prosesini təkmilləşdirmək və pedaqoji kadr hazırlığını yüksəltmək istiqamətində mühüm işlər aparılır və bu sahədə müasir tələblər baxımından yeni pedaqoji texnologiya, metod və vasitələrdən istifadə edilir. Müəllimlər pedaqoji və elmi mətbuatı izləyir, fənlərin keyfiyyətli tədrisi zamanı interaktiv metodlardan bacarıqla istifadə edirlər. Kollecdə yüksək nizam və intizam vardır. Tələbələrin ideya-siyasi, hərbi vətənpərvərlik, elmi-pedaqoji bilik səviyyələrini, dünyagörüşlərini, həyata baxışlarını inkişaf etdirmək baxımından müntəzəm təsirli tədbirlər görülür.

## Nəticə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “**Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və**

**bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir**”.

Bu gün aktual məsələlərdən biri təhsil müəssisələrində innovativ ideyaların tətbiqi və beynəlxalq rəqabətədavamlılıq yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın bir çox nüfuzlu ölkələrində olduğu kimi, ali və orta ixtisas təhsil sahəsinə də diqqəti daim artırır.

Təhsilə yönəldilən dövlət vəsaitinin ilbəil artması, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. “Təhsil əsri” elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında onun rolu heç vaxt indiki qədər aktual olmamışdır.

Prezident İlham Əliyev bununla bağlı deyir: **“Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik**”.

Astara Pedaqoji Kollecinin müəllim və tələbə heyəti ulu öndərimiz Heydər Əliyevin yaratdığı ənənələri davam etdirəcəklərinə söz verir, onun siyasi kursunun davamçısı ölkə prezidenti cənab İlham Əliyevin siyasətini daim dəstəkləyəcəklərini bildirirlər.

Pedaqoji kollektiv dövlətimizin başçısının təhsil işçiləri qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.